

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 21 may 2025-ci il №35 (2944) https://mod.gov.az Qiymәti 30 qəpik


## Azərbaycan Respublikası vətəndaşlarının 2025-ci il iyulun 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 26-cı bəndini rəhbər tutaraq, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 12.3-cü və 40.1-ci maddələrinə əsasən və Azərbaycan Respublikasının Silahlı Qüvvələrini şəxsi heyətlə komplektləşdirmək məqsədilə **qərara alıram:**

1. 2007-ci ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1995-2006-cı illərdə doğulmuş, yaşı 30-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikası vətəndaşları 2025-ci il iyulun 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılsınlar.

2. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları 2025-ci il iyulun 1-dən 30-dək ehtiyata buraxılsınlar.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamın icrası üçün qanunvericilikdə nəzərdə tutulmuş tədbirləri görsün.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 19 may 2025-ci il

## Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

## Uzun illər işğal altında olan torpaqları düşmən qüvvələrindən azad etdik və 2023-cü ildə öz suverenliyimizi tam bərpa etdik



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Macarıstanın Baş naziri Viktor Orbanın dəvəti ilə mayın 20-də Macarıstana işgüzar səfərə gedib.

Paytaxt Budapeştin Ferents List adına Beynəlxalq Hava Limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Azərbaycan Prezidentini Macarıstanın Avropa İttifaqı məsələləri üzrə naziri Yanoş Boka və digər rəsmi şəxslər qarşılayıblar.

* * *

Mayın 20-də Budapeştdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Macarıstanın Baş naziri Viktor Orban ilə məhdud tərkibdə görüşü olub.

Macarıstanın Baş naziri Viktor Orban Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi qarşılayıb.

Azərbaycan Prezidenti və Macarıstanın Baş naziri birgə foto çəkdiriblər.

* * *

Mayın 20-də Budapeştdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Macarıstanın Baş naziri Viktor Orban ilə geniş tərkibdə görüşü olub.

Viktor Orban həm Macarıstana işgüzar səfər etməsinə və səfər çərçivəsində keçirilən ikitərəfli görüşlərə, həm də Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının qeyri-rəsmi iclasında iştiraka dəvəti qəbul etdiyinə görə Prezident İlham Əliyevə təşəkkürünü bildirib.

Baş nazir vurğulayıb ki, ölkəsinin Türk Dövlətləri Təşkilatında müşahidəçi dövlət olaraq bu tədbirə ev sahibliyi etməsi Macarıstanın təşkilat çərçivəsində əməkdaşlığa sadiq olduğuna böyük əhəmiyyət verməsinin növbəti göstəricisidir.

İkitərəfli əlaqələrimizin bütün sahələrdə uğurla inkişaf etməsindən məmnunluğunu bildirən Viktor Orban Macarıstan iqtisadiyyatının çətin vaxtlarında Azərbaycanın dost ölkə olaraq göstərdiyi dəstəyin yüksək qiymətləndirildiyini deyib.

Dövlətimizin başçısı ölkələrimiz arasında dostluq və strateji tərəfdaşlıq münasibətlərinin olduğunu vurğulayaraq, mütəmadi qarşılıqlı səfərlərin həyata keçirildiyini qeyd edib.

Prezident İlham Əliyev Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının qeyri-rəsmi iclasının keçirilməsini vacib bir addım kimi qiymətləndirib. Azərbaycanın təşəbbüsü ilə Türk Dövlətləri Təşkilatının ilk qeyri-rəsmi Zirvə görüşünün Şuşa şəhərində keçirildiyini xatırladan və bunun artıq ənənəyə çevrildiyini deyən dövlətimizin başçısı ikinci bu cür tədbirin müşahidəçi dövlət olaraq Macarıstanda keçirilməsini məmnunluqla vurğulayıb.

Söhbət zamanı Azərbaycanla Macarıstan arasında sıx siyasi dialoqun mövcud olduğu, mütəmadi şəkildə məsləhətləşmələrin aparıldığı və beynəlxalq təşkilatlar çərçivəsində ölkələrimizin bir-birini dəstəklədiyi qeyd edilib. Azərbaycanın və Macarıstanın beynəlxalq səviyyədə öz ölkələrinin milli maraqları əsasında müstəqil siyasət aparan dövlətlər olduqları vurğulanıb. Cəbrayılın Soltanlı kəndinin, həmçinin məktəb tikintisi layihəsinə görə Macarıstana təşəkkür bildirilib.

Humanitar sahədə uğurlu əməkdaşlığa toxunulub, azərbaycanlı tələbələrin Macarıstanda təhsil almaları və onlara təhsil təqaüdlərinin ayrıldığı qeyd edilib.

Söhbət zamanı enerji, investisiyalar, əczaçılıq, qida sənayesi və digər sahələrdə əməkdaşlığın inkişafından məmnunluq ifadə olunub.

**(Ardı 2-ci səhifədə)**

## ANAMA: Ötən həftə 59 mina və 377 partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib




Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə minatəmizləmə fəaliyyətinə cəlb olunmuş qurumlar tərəfindən mayın 12-dən 18-dək icra edilən minatəmizləmə əməliyyatlarına dair məlumatı açıqlayıb.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, ötən həftə Tərtər, Ağdərə, Kəlbəcər, Ağdam, Xocalı, Xankəndi, Xocavənd, Laçın, Şuşa, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilanda aparılmış minatəmizləmə əməliyyatları zamanı piyada əleyhinə 36, tank əleyhinə 23 mina və 377 partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib.

Həftə ərzində 1291,8 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.

## Həkimlik fədakarlıqdır

Həkimlik bəşəriyyətin ən qədim və şərəfli peşələrindəndir. Həkimlər insan həyatının keşiyində dayanan, onların sağlamlığını qorumaq və bərpa etmək üçün çalışan fədakar insanlardır. Bu peşə bilik, təcrübə, insansevərlik və böyük məsuliyyət tələb edir.

Tibb elminin dahiləri İbn Sinadan, Hippokratdan, Eskulapdan başlayaraq müasir dövrümüzədək həkimlər sağaltdıqları xəstələrin xoşbəxt təbəssümündə görüblər öz xoşbəxtliklərini. Xəstələrinin müalicəsini vicdanla, ehtiramla, humanizm və mərhəmətlilik prinsipləri əsasında peşəkarlıqla həyata keçiriblər. Həkimlik peşəsinin məxsusi cəhətlərini, zəruri etik-əxlaqi xüsusiyyətlərini məşhur şəxsiyyətlər müxtəlif epitetlərlə ifadə ediblər. Tibb elminin banilərindən olan Hippokrat bildirirdi: "Həkimlər çox şey bilməlidir, ancaq ən əsası - insanı hiss etməyi və onu dinləməyi bacarmaqdır". Bu fikir müasir dövrdə də aktualdır. Yaxşı həkim təkcə müalicə etmir, həm də xəstəsinin psixoloji vəziyyətini nəzərə alır, ona ümid və inam aşılayır.

Həkimlik bu baxımdan xeyirxahlıqdır, nəciblikdir. İnsanlığa xidmətin ən ali formasıdır. Bu sənət yalnız bilik və bacarıq deyil, onun mahiyyəti həm də şəfqətdir, fədakarlıqdır, mərhəmətdir. Həkimlik, ruhlara da şəfa verməkdir. Ağrıya məlhəm olmaq, ümidi tükənənə ümid vermək, həyatla ölüm arasındakı incə sərhəddə qalan insan üçün xilaskara çevrilməkdir. Bu, insan sevgisi və vicdanı ilə icra olunan müqəddəs bir missiyadır.

**(Ardı 7-ci səhifədə)**

## “Əsgərlərimizin düzgün və sağlam qidalanması bizim əsas vəzifəmizdir”



Milli-mədəni irsimizin mühüm tərkib hissələrindən biri də milli mətbəximizdir. Azərbaycan mətbəxi zəngin tariximizi və mədəniyyətimizi özündə əks etdirən kulinariya irslərindən biridir. Milli mətbəximiz təkcə dadlı yeməkləri ilə seçilmir, həm də onların hazırlanma ənənələri, süfrə mədəniyyəti və hər bir təamın daşıdığı tarixi hekayələrlə də seçilir. Həmçinin bəzi yeməklərimiz də vardır ki, onlar kulinariya nümunələri sayılmaqla yanaşı, həm də xalqımızın qonaqpərvərliyinin göstəricisidir.

Azərbaycan mətbəxinin əhəmiyyətini yalnız evlərimizdə deyil, Azərbaycan Ordusunun məişətində də görmək mümkündür. Hərbi qulluqçularımızın düzgün qidalanması onların fiziki gücü və dözümlülüyü üçün başlıca amildir. Məhz buna görə də hərbi hissələrdə əsgər yeməkxanaları müasir avadanlıqlarla təchiz edilir, peşəkar aşpazlar tərəfindən hərbi qulluqçularımız üçün milli mətbəximizin ən gözəl və ləziz təamları hazırlanır.

**(Ardı 8-ci səhifədə)**

# Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

# Uzun illər işğal altında olan torpaqları düşmən qüvvələrindən azad etdik və 2023-cü ildə öz suverenliyimizi tam bərpa etdik



(Əvvəli 1-ci səhifədə)

Mayın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Macarıstanın Baş naziri Viktor Orban mətbuata bəyanatlarla çıxış ediblər.

Əvvəlcə Macarıstanın Baş naziri bəyanatla çıxış edib.

### Baş nazir Viktor Orbanın bəyanatı

- Mən hər birinizi salamlayıram və Prezident Əliyevi Budapeştdə xüsusilə səmimiyyətlə salamlayıram.

Biz bu gün Macarıstanın köhnə dostunu görürük. Dost dar gündə tanınar və artıq 20 ildən çoxdur ki, Macarıstanın qarşılaşdığı istənilən sahədə - diplomatiyada, neft-qaz sənayesində və digər sahələrdə üzləşdiyi istənilən çətinlik zamanı həmişə Prezident Əliyev bizim yanımızda olub.

Tarixdə ilk dəfədir ki, Türk Dövlətləri Təşkilatının Zirvə toplantısı Macarıstanda keçirilir. Biz bu təşkilata tamhüquqlu üzv deyilik, biz müşahidəçi ölkəyik. Ancaq istənilən şəkildə biz bu gün bu Zirvə toplantısına ev sahibliyi edirik. Bizi sevindirən digər bir amil odur ki, bu gün beynəlxalq diplomatiyada qasırğanın hökm sürməsi, vəziyyətin gündən-günə dəyişməsi, təhlükələrin və çağırışların artması fonunda dost ölkələr bir araya gələrək beynəlxalq münasibətləri müzakirə edirlər.

Macarıstanın qonşusu olan ölkədə artıq üç ildir ki, müharibə gedir. Bu günədək Macarıstanın iqtisadiyyatının itkisi 20 milyard avrodan artıqdır. Hər kəsə məlumdur ki, müharibə başlayan gündən bəri Avropa İttifaqı müharibəni genişləndirmək seçimini etmişdir, nəinki sülhü bərqərar etmək. Bundan əlavə, Avropa iqtisadiyyatı olduqca mürəkkəb vəziyyətdədir. Çünki sanksiyalar bazar iqtisadiyyatını və Avropanın inkişafının təməlini sarsıtmışdır. Bazar iqtisadiyyatı, əlbəttə ki, Avropa iqtisadiyyatının təməl prinsipləri idi və bunlar artıq sarsılmış vəziyyətdədir. Deyə bilərəm ki, bu gün Avropa iqtisadiyyatının gəmisi kompas olmadan səyahət edir. Onu da qeyd etmək istəyirəm ki, biz mütəmadi olaraq enerji böhranı şəraitində yaşayırıq. Biz Amerikadan fərqli olaraq, Avropada qaza 3-4 dəfə daha çox pul ödəyirik və bu şəraitdə rəqabətqabiliyyətli iqtisadiyyat qurmaq çətindir.

Biz dənizə çıxışı olmayan bir ölkəyik. Bizim nailiyyətimiz ondan ibarətdir ki, biz Rusiya ilə enerji münasibətlərini qoruyub saxladıq. Bizim üçün istisna tətbiq edilmişdir. Ancaq Ukrayna bizə məhdudiyyətlər tətbiq edir. Türkdilli dövlətlərin dəstəyi olmasaydı, bu gün bizim enerji təhlükəsizliyini təmin etməyimiz çox çətin olardı. Ancaq biz əlimizdən gələni edəcəyik ki, iqtisadiyyatımızın dayanıqlılığı təmin olunsun.

Xanımlar və cənablar, beləliklə etibarlı tərəfdaşın dəyəri məhz bu cür ölçülür. Türk ölkələri olmasaydı, bu gün macar əhali enerjiyə 3-4 dəfə daha çox pul sərf etməli olardı. Cənab Prezident bizi əmin edib ki, ötən il olduğu kimi, bu il də Macarıstanın qaz təminatı təmin ediləcəkdir. Azərbaycan bizi əmin etmişdir ki, bizə lazım olan həcmdə qaz veriləcəkdir. Macarıstanın MVM və digər şirkətləri Azərbaycanda neft-qaz yataqlarında, boru kəmərlərində səhmlərini artıra bilər. Mən şadam ki, müəyyən həcmdə qaz ehtiyatları və neft barelləri bizim ixtiyarımızdadır. Ola bilər bu, Azərbaycan üçün çox böyük həcm deyil. Ancaq bizim üçün bu, çox vacib bir məsələdir ki, Azərbaycanın neft yataqlarında payçıyıq. Bu, təkcə iqtisadi baxımdan deyil, sırf mənəvi baxımdan da vacibdir. Bu dostluq sayəsində biz özümüzü daha az mürəkkəb vəziyyətdə, həssas vəziyyətdə hiss edirik.

Eyni zamanda, iqtisadiyyat məsələlərindən başqa, biz Azərbaycana yatırılan Macarıstan sərmayələri haqqında danışdıq. Biz sülh haqqında da danışdıq. Çünki sülh təkcə müharibə şəraiti üçün vacib deyil, iqtisadi baxımdan da vacibdir. Biz razılığa gəldik ki, bu müharibənin döyüş meydanında həlli yoxdur. Bu, yalnız danışıqlar masasında olmalıdır. Bu, təkcə Rusiya-Ukrayna müharibəsinə deyil, digər münaqişələrə də şamil edilə bilər.

Mən Prezident Əliyevi təbrik etmək istəyirəm ki, Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin mətni üzərində razılıq əldə olunub. Ümid edirəm ki, sülh müqaviləsinin imzalanması tezliklə baş tutacaq. Bu, olduqca vacib bir məsələdir.

Cənab Prezident, Sizi burada bir daha salamlayırıq.

* * *

Sonra Azərbaycan Prezidenti bəyanatla çıxış edib.

### Prezident İlham Əliyevin bəyanatı

- Hörmətli cənab Baş nazir, əziz dost.

Hörmətli xanımlar və cənablar.

Cənab Baş nazir, ilk növbədə dəvətə və qonaqpərvərliyə görə Sizə təşəkkürümü bildirmək istəyirəm. Mən Macarıstana tez-tez gəlirəm. Son dəfə 2023-cü ildə gəlmişəm. Siz də Azərbaycana tez-tez gəlirsiniz. Sizin son səfəriniz keçən ilin noyabr ayında olmuşdur. Yəni bu, onu göstərir ki, aramızda olan təmaslar müntəzəm xarakter daşıyır və Azərbaycan-Macarıstan əlaqələri uğurla inkişaf edir.

Biz dost ölkələrik, strateji tərəfdaşıq. Bu gün danışıqlar və məhdud tərkibdə keçirilmiş görüş zamanı bir daha gördük ki, bir çox məsələlər üzrə mövqeyimiz üst-üstə düşür. Bu gün dəyişən dünyada gedən proseslərə nəzər saldıqda, yenə də mövqelərimizdə elə bir böyük fərq yoxdur. Azərbaycanla Macarıstan arasında bir çox oxşarlıqlar var. Birincisi, bizim tarixi köklərimiz. Bilirəm ki, macar xalqı öz tarixi köklərinə çox bağlıdır. Ölkələrimizin əhalisinin sayının təxminən eyni olması, ölkə ərazisinin sahəsi də demək olar bir-birinə çox yaxındır. Oxşarlıqlardan biri də Sizin də qeyd etdiyiniz kimi, Macarıstan açıq dənizlərə çıxışı olmayan ölkədir. Azərbaycan da elə ölkələrdəndir. Düzdür, biz Xəzər dənizinin sahilində yerləşirik, ancaq açıq dənizlərə bizim də çıxışımız yoxdur. Bir də Siz qeyd etdiniz ki, Macarıstan müharibə aparan ölkə ilə həmsərhəddir. Biz də eyni vəziyyətdəyik. Siz müharibə aparan bir ölkə ilə, biz isə digəri ilə həmsərhədik. Yəni, bu oxşarlıqlar təbii olaraq qarşılıqlı anlaşma üçün də gözəl zəmin yaradır. Çünki biz demək olar ki, eyni çağırışlarla üz-üzəyik.

Azərbaycan, eyni zamanda, dörd il yarım əvvəl müharibə aparan ölkə olmuşdur. Biz öz ərazimizdə müharibə aparmışdıq. Ermənistanın 30 illik işğalına son qoymuşduq. Düzdür, bizim müharibəmiz Rusiya-Ukrayna müharibəsi kimi 3 ildən çox yox, cəmi 44 gün ərzində aparılmışdır. Hər gün biz irəliyə gedirdik, bir addım geri atmamışdıq, ordumuzda bir dənə də olsun fərari olmamışdır. Ermənistan ordusunda isə onların özlərinin etirafına görə 12 min fərari olmuşdur.

İkinci Qarabağ müharibəsi beynəlxalq hüquq çərçivəsində - BMT-nin Nizamnaməsi əsasında aparıldı. BMT-nin Nizamnaməsinin 51-ci maddəsində hər bir ölkənin özünümüdafiə hüququ var. Biz də bu hüquqdan istifadə edərək, uzun illər işğal altında olan torpaqları düşmən qüvvələrindən azad etdik və 2023-cü ildə öz suverenliyimizi tam bərpa etdik.



Ermənistan-Azərbaycan sülh prosesi ilə bağlı onu deyə bilərəm ki, sülh danışıqlarının İkinci Qarabağ müharibəsindən sonra təşəbbüskarı da biz olmuşuq. Sülh müqaviləsinin mətninin müəllifi də biz olmuşuq və məhz bu mətn bu gün Ermənistan tərəfindən qəbul edilib, təbii ki, müəyyən düzəlişlərlə. Amma prinsip etibarilə bizim təklif etdiyimiz məsələ bu gün artıq Ermənistan tərəfindən qəbul edilib. Qaldı ki, sülh müqaviləsinin bağlanmasına, burada iki əsas şərt var. Birincisi, Ermənistan konstitusiyasında bu günə qədər Azərbaycana qarşı ərazi iddiası vardır. Bu, dəyişdirilməlidir. İkincisi isə Qarabağ münaqişəsini həll etmək üçün yaradılmış ATƏT-in Minsk qrupu ləğv edilməlidir. Bu, artıq de-fakto fəaliyyət göstərmir, de-yure bunun ləğvi zəruridir. Əfsuslar olsun ki, Ermənistan tərəfi hələ ki, bu iki şərtimizi qəbul etmək istəmir. Ancaq son illərin hadisələri və proseslərin gedişatı onu göstərir ki, gec-tez onlar bizim təklifimizlə razılaşmağa məcbur olacaqlar. Çünki bu təkliflərdə qeyri-adi heç bir məsələ yoxdur.

Bizim ikitərəfli gündəliyimiz də kifayət qədər genişdir. Biz bu gün bunu geniş müzakirə etdik. Energetika sahəsində uğurlu əməkdaşlıq edirik. Macarıstan şirkətləri Azərbaycanın əsas iki neft və qaz layihəsində pay sahibidir - "Azəri-Çıraq-Günəşli" və "Şahdəniz" yataqlarında. Gələn ilin əvvəlində növbəti kontrakt imzalanacaqdır. Bu barədə də bu gün fikir mübadiləsi aparıldı. Azərbaycanın qurudakı neft yataqlarında Macarıstan şirkəti fəaliyyətə başlayacaq. Biz keçən ildən etibarən Macarıstana təbii qazın ixracına başlamışıq. Mən bu gün qeyd etdim və Baş nazir burada qeyd etdi ki, biz Macarıstanın tələbatı səviyyəsində qaz təminatı təşkil edə bilərik. Bizim qaz resurs bazamız kifayət qədər genişdir və genişlənir, yeni qaz yataqları istismara veriləcək. Biz bu gün 12 ölkəyə təbii qaz ixrac edirik. Onlardan 10-u Avropa ölkəsidir, 8-i isə Avropa İttifaqı üzvüdür. Avropa Komissiyası Azərbaycanı Pan-Avropa qaz təchizatçısı ölkə və etibarlı tərəfdaş kimi tanıyır. Əgər biz qaz ixracının coğrafiyasına baxsaq, görərik ki, burada nəinki Avropa məkanında, dünya miqyasında boru xətti ilə nəql edilən qazın coğrafi əhatəsinə görə Azərbaycan dünyada qabaqcıl yerlərdədir. Bizim gələcəkdə qaz ehtiyatlarımızın işlənilməsi nəzərdə tutulur. Biz, eyni zamanda, Macarıstanla yaşıl enerji üzrə fəal işləyirik. Azərbaycanın çox böyükmiqyaslı yaşıl enerji gündəliyi vardır. Biz növbəti beş il ərzində 6 min meqavat gücündə yaşıl enerji istehsal edəcəyik. 500 meqavat son iki il ərzində yaradıldı, 6 min meqavat beş il ərzində təmin ediləcək. Mən bütün bu rəqəmləri kontraktlar əsasında deyirəm, yəni bu, reallaşacaq layihələrdir. Beləliklə, təkcə bu layihələr bizə təqribən 3-4 milyard kubmetr qaza qənaət etmək üçün imkan yaradacaq ki, bunun da əsas istiqaməti, təbii ki, Türkiyə və Avropa ölkələri olacaqdır.

Bütün başqa məsələlərdə də biz iki dost və tərəfdaş ölkə kimi birgə fəaliyyət göstəririk. Bildiyiniz kimi, Macarıstanın təşəbbüsü ilə sabah ikinci qeyri-rəsmi Zirvə görüşü keçiriləcək. Birinci Zirvə görüşü keçən il Şuşa şəhərində keçirilmişdir. Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi Zirvə görüşlərinin keçirilməsinin təşəbbüskarı Azərbaycan olmuşdur və bu estafeti bizdən Macarıstan alıb, biz bunu alqışlayırıq. Bu, bir daha onu göstərir ki, Macarıstan öz tarixi köklərinə çox bağlıdır, bu, bizi də çox sevindirir.

Çıxışımın sonunda Macarıstanı bütün əldə edilmiş uğurlar münasibətilə təbrik etmək istəyirəm. Biz bilirik ki, Macarıstan müstəqil siyasət aparan nadir ölkələrdən biridir. Xüsusilə Avropa İttifaqı çərçivəsində müstəqil siyasət aparmaq kifayət qədər çətindir. Çünki bir çox qaydalar var, bir çox oturuşmuş prinsiplər var və Avropa İttifaqının vahid xarici siyasəti təbii olaraq prinsiplərdən biridir. Buna baxmayaraq, dostum Viktor Orban həmişə Macarıstanın dövlət və milli maraqlarını hər şeydən üstün tutub. Biz bunu alqışlayırıq. Hər zaman Macarıstanın maraqlarını qoruyub və Macarıstan üçün nə xeyir gətirirsə, o təşəbbüslərə qoşulub, nə xeyir gətirmirsə, o təşəbbüslərdən həmişə uzaq olub. Yenə də deyirəm, Avropa İttifaqının içində ola-ola bu siyasəti aparmaq, deyə bilərəm ki, doğrudan da, böyük qəhrəmanlıq tələb edir, siyasi iradə tələb edir və düşünülmüş siyasət tələb edir. Bütün bunlar da Macarıstanda var. Biz Macarıstanı çox sevirik, o cümlədən bu amillərə görə. Sizə və bütün dost macar xalqına bu istiqamətdə yeni uğurlar arzulayırıq.

Sağ olun.

**AZƏRTAC-ın materialları əsasında**

# Azərbaycan-İsrail hərbi əməkdaşlığı inkişaf etdirilir







Azərbaycan Respublikası Müdafiə Nazirliyinin rəhbər heyəti İsrailin Təl-Əviv şəhərində rəsmi səfərdədir.

Müdafiə Nazirliyi xəbər verir ki, səfər çərçivəsində Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov İsrail Dövlətinin müdafiə naziri cənab İsrael Katz və Müdafiə Qüvvələrinin Baş Qərargah rəisi general-leytenant Eyal Zamir ilə görüşüb.

Ölkələrimiz arasında münasibətlərin yüksək səviyyədə olmasının xüsusi vurğulandığı görüşlərdə hərbi əməkdaşlığın inkişaf perspektivlərinə dair ətraflı fikir mübadiləsi aparılıb.

Rəsmi səfər zamanı Azərbaycan Respublikasının müdafiə nazirinin müavini - Baş direktor cənab Aqil Qurbanov ilə İsrail Müdafiə Nazirliyinin Baş direktoru cənab Amir Baram arasında keçirilən görüşdə hərbi-texniki və hərbi təhsil sahələrində əməkdaşlığın genişləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər və perspektiv planlardan danışılıb.

Nazirliyin rəhbər heyəti, həmçinin İsrail Müdafiə Qüvvələrinin Baş Əməliyyat Mərkəzini ziyarət edərək burada görülən işlərlə tanış olub.

# Azərbaycan Ordusunun Baş Qərargah rəisi İtaliya nümayəndə heyətini qəbul edib







Mayın 20-də Azərbaycan Respublikasının müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev ölkəmizdə səfərdə olan İtaliyanın Milli Müdafiə Universitetinin Ali Araşdırmalar Mərkəzinin direktoru general-polkovnik Stefano Manninonu qəbul edib.

Müdafiə Nazirliyi xəbər verir ki, əvvəlcə Şəhidlər xiyabanına gələn İtaliya nümayəndə heyəti ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman Vətən övladlarının məzarlarını ziyarət edib, üzərinə gül dəstələri düzərək xatirələrinə ehtiram nümayiş etdirib.

Azərbaycan Ordusunun Baş Qərargahında keçirilən görüşdə general-polkovnik K.Vəliyev italiyalı qonağı salamlayaraq onu ölkəmizdə görməkdən məmnunluğunu bildirib. Baş Qərargah rəisi Azərbaycan və İtaliya arasında hərbi təhsil sahəsində əməkdaşlıq çərçivəsində qarşılıqlı təcrübə mübadiləsinin peşəkar hərbi kadr potensialının artırılmasına xidmət etdiyini vurğulayıb.

Səmimi qəbula və göstərilən qonaqpərvərliyə görə minnətdarlığını ifadə edən general-polkovnik S.Mannino hərbi kursların, ixtisasartırma proqramlarının təşkili, eləcə də mütəxəssis hazırlığı sahəsində birgə təşəbbüslərin həyata keçirilməsinin əhəmiyyətini diqqətə çatdırıb.

Görüşdə Azərbaycan-İtaliya hərbi əlaqələrinin möhkəmlənməsində qarşılıqlı səfərlərin xüsusi önəm kəsb etdiyi bildirilib, maraq doğuran bir sıra digər mövzulara dair ətraflı fikir mübadiləsi aparılıb.

# Azərbaycanda “Araz-2025” birgə təlimi keçirilir







Azərbaycanda keçirilən "Araz-2025" birgə təliminə İran İslam Respublikasından cəlb olunan heyətin rəhbəri və digər iştirakçılar ölkəmizə səfər ediblər.

Müdafiə Nazirliyi xəbər verir ki, hər iki ölkənin təlim rəhbərləri və digər yüksək səviyyəli üzvləri arasında görüş keçirilib.

Görüşdə təlimin məqsədi, ssenarisi və keçiriləcəyi ərazi, hazırlıq prosesi, təhlükəsizlik qaydaları, həmçinin müxtəlif mərhələlər üzrə icra olunacaq tapşırıqlar barədə brifinq təqdim olunub.

* * *

Ölkəmizdə keçirilən "Araz-2025" birgə təliminin açılış mərasimi olub.

Əvvəlcə Azərbaycan və İranın təlim rəhbərləri, eləcə də digər yüksək səviyyəli üzvləri Vətən uğrunda canından keçən şəhidlərimizin xatirəsinə ucaldılmış abidəni ziyarət edərək önünə gül dəstələri düzüblər.

Ümummilli Lider Heydər Əliyevin, həmçinin hər iki ölkənin ərazi bütövlüyü uğrunda canını fəda edən şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının və İran İslam Respublikasının Dövlət himnləri səsləndirilib.

Tədbirdə çıxış edən təlim rəhbərləri iştirakçılara uğurlar arzulayıb, keçirilən birgə təlimin əhəmiyyətini xüsusi vurğulayıblar.

Yüksələn xətlə inkişaf edən Azərbaycan-İran hərbi əməkdaşlığının dərinləşməsində "Araz-2025" birgə təliminin əhəmiyyəti qeyd olunub. Bildirilib ki, bu təlim ölkələrimiz və onların Silahlı Qüvvələri arasında qarşılıqlı etimadın artırılmasına xidmət edir.

Açılış mərasiminin sonunda hərbi qulluqçular təntənəli marşla tribuna önündən keçiblər.





* * *

Azərbaycanın işğaldan azad edilmiş ərazilərində İran İslam Respublikasından cəlb olunan heyətin iştirakı ilə keçirilən "Araz-2025" birgə təlimi davam edir.

Ssenariyə uyğun olaraq, iştirakçılar təlimin mərhələləri üzrə qarşıya qoyulmuş tapşırıqları uğurla yerinə yetirirlər.

Hər iki ölkənin hərbi qulluqçuları icra olunan fəaliyyətlər zamanı yüksək peşəkarlıq nümayiş etdirirlər.

Azərbaycan-İran əlaqələrinin və əməkdaşlığının möhkəmləndirilməsi baxımından xüsusi əhəmiyyət daşıyan "Araz-2025" birgə təlimi mayın 21-də başa çatacaq.

# Türkiyə MMU-nun nümayəndə heyəti Naxçıvana səfər edib







Türkiyə Milli Müdafiə Universitetinin (MMU), Hərbi Hava və Hərbi Dəniz institutlarının rəhbər heyəti, müəllimləri və "Qərargahın idarə olunması kursu"nun dinləyiciləri ölkəmizə səfər çərçivəsində Naxçıvanda olublar.

Müdafiə Nazirliyi xəbər verir ki, qonaqlar əvvəlcə Naxçıvan şəhərinin baş meydanında ucaldılan Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edib, xatirəsinə dərin hörmət və ehtiram nümayiş etdiriblər. Sonra Heydər Əliyev Muzeyi ziyarət olunub, qonaqlara Ulu Öndərin çoxşaxəli siyasi fəaliyyəti, o cümlədən mənalı ömrünün Naxçıvan mərhələsi haqqında ətraflı məlumat verilib.

Nümayəndə heyəti Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün Naxçıvan şəhərində ucaldılan abidəsini ziyarət edib, xatirəsi ehtiramla yad olunub.

Səfər çərçivəsində qonaqlar Əlahiddə Ümumqoşun Ordunun (ƏÜO) Qərargahında olublar. Onlara ƏÜO-nun yaranma tarixi, keçdiyi inkişaf yolu, fəaliyyəti, həyata keçirilən islahatlar və qarşıda duran məqsədlərlə bağlı ətraflı məlumat verilib, protokola uyğun olaraq "Şərəf kitabı" imzalanıb.



ƏÜO komandanı general-mayor Kənan Seyidov Türkiyə Milli Müdafiə Universitetinin rektoru, professor Erhan Afyoncu ilə görüşüb.

Görüş zamanı hərbi təhsil sahəsində əməkdaşlığın daha da genişləndirilməsinin vacibliyi vurğulanıb, bu istiqamətdə görüləcək işlər və qarşılıqlı maraq doğuran bir sıra digər məsələlərdən danışılıb.

Türkiyəli nümayəndələr Naxçıvan Hərbi Kollecində və Heydər Əliyev adına Hərbi Liseydə olublar. Onlara xüsusi təyinatlı təhsil müəssisələrində aparılan islahatlar, mövcud hərbi təhsil sistemi, tədris və elmi fəaliyyət istiqamətləri barədə ətraflı məlumat verilib. Qonaqlar qərargah, tədris korpusları, yataqxana və digər inzibati binalara baxış keçirib, kursantlar üçün yaradılan sosial-məişət şəraiti ilə tanış olublar.

Daha sonra Türkiyə-Azərbaycan Dostluq Parkı və tarixi-mədəniyyət abidələri ziyarət olunub.

Ölkəmizə "Xarici ölkələrdə müşahidə gəzintisi" çərçivəsində səfəri zamanı qardaş ölkənin nümayəndə heyəti işğaldan azad edilmiş ərazilərimizi də ziyarət edib, aparılan bərpa-quruculuq işləri ilə tanış olublar.

# Müddətdən artıq həqiqi hərbi xidmətə qəbul olmaq istəyən bir qrup vətəndaşla görüş keçirilib





Milli Müdafiə Universitetinin tabeliyindəki hərbi təhsil müəssisələrində müddətdən artıq həqiqi hərbi xidmətə qəbul olmaq üçün müraciət edən bir qrup vətəndaşla görüş keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, namizədlərə "Çavuş hazırlığı kursu"nun mahiyyəti, təhsil prosesi və hərbi təhsil müəssisələrinin imkanları barədə ətraflı məlumat verilib.

Görüşdə namizədlərə, həmçinin xidmət müddətində mövcud olan imtiyazlar, karyerada inkişaf və gələcəkdə təhsil almaq üçün yaradılan imkanlarla bağlı geniş məlumatlar çatdırılıb, onları maraqlandıran suallar cavablandırılıb.

Əlavə olaraq bildirilib ki, vətəndaşların çoxsaylı müraciətləri nəzərə alınaraq Sumqayıt, Mingəçevir, Şirvan, Gəncə, Goranboy, Lənkəran, Masallı, Kürdəmir, Beyləqan, Bərdə, Ağcabədi, və Quba şəhərlərində yerləşən Dövlət Məşğulluq Agentliyinin məşğulluq filiallarında və xidmət şöbələrində, Bakı şəhərində isə Heydər Əliyev adına Hərbi İnstitutda fəaliyyət göstərən mərkəzdə sənədlərin qəbul müddəti mayın 30-dək uzadılıb.

# Naxçıvanda "8 Noyabr Zəfəri suverenliyimizin qarantıdır" mövzusunda konfrans keçirilib





Mayın 19-da Naxçıvanda "Konstitusiya və Suverenlik İli" çərçivəsində Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı və Naxçıvan şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "8 Noyabr Zəfəri suverenliyimizin qarantıdır" mövzusunda konfrans keçirilib.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Naxçıvan Dövlət Milli Dram Teatrında baş tutan konfransdan öncə Ümummilli Lider Heydər Əliyevin abidəsi ziyarət edilib, abidə önünə gül dəstələri qoyulub.

Konfransda Ulu Öndər Heydər Əliyevin və şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.

Naxçıvan şəhər İcra Hakimiyyətinin başçısı Cabbar Musayev çıxış edərək, ordu sahəsindəki islahatların təməlinin Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulduğunu bildirib. O, bu siyasətin bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini diqqətə çatdırıb. Həmçinin Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələrinin qazandığı 8 Noyabr Zəferinin tarixi önəmindən danışıb. Qeyd edib ki, məhz bu tarixi Zəfər Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini təmin etməklə yanaşı, regionda uzunmüddətli sülh və etibarlı təhlükəsizlik üçün geniş perspektivlər açıb.

Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri polkovnik Cəlil Xəlilov 8 Noyabr Zəfərinin Cənubi Qafqaz regionunda uzun müddət davam edən status-kvonu köklü şəkildə dəyişdiyini, yeni reallıqlar yaratdığını bildirib: "8 Noyabr Zəfəri Azərbaycan hərb tarixinin ən şanlı səhifəsi, xalqımızın milli qürur günüdür. Məhz bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə erməni faşizmi üzərində parlaq qələbə qazanan Azərbaycan Silahlı Qüvvələri yeni tarix yazmış, uzunmüddətli erməni işğalına son qoymuşdur. 8 Noyabr Zəfəri uzun fasilədən sonra bizə ərazi bütövlüyümüzü və suverenliyimizi təmin etməyə imkan vermişdir. 44 günlük Vətən müharibəsində Azərbaycan xalqı öz dövlətinin, Prezidentinin yanında yer almış, yumruq kimi birləşmiş və elliklə fədakarlıq sərgiləmişdir. Gənclərimiz Vətənin azadlığı naminə tarixdə misli-bərabəri olmayan qəhrəmanlıq nümunələri göstərmiş, Şuşa kimi strateji şəhəri yüngül atıcı silahlar və yalın əllə azad etməklə bütün dünyanı öz cəsarət və igidlikləri ilə heyrətləndirmişdir. Müzəffər Ali Baş Komandan İlham Əliyevin dediyi kimi, biz bu Zəfərə gənclərimizin yüksək vətənpərvərlik ruhu, şəhidlərimizin və qazilərimizin qəhrəmanlığı, xalqımızın həmrəyliyi sayəsində nail olmuşuq. Bu gün bizim əsas missiyamız bu birliyi, bu həmrəyliyi qoruyub saxlamaq, dövlətimizin yanında olmaq, Prezidentimizin hər bir çağırışına dəstək verməkdir. İnanıram ki, qəhrəman Azərbaycan xalqı bu tarixi birliyi bundan sonra da qoruyub saxlayacaq, gənclərimiz anti-Azərbaycan qüvvələrinin hər bir təxribatının qarşısının alınmasında daim mühüm rol oynayacaq".

Konfransda Milli Məclisinin deputatı Ülviyyə Həmzəyeva, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, 44 günlük Vətən müharibəsi əlili Təbriz Zeynalov, Vətən müharibəsi əlili Mirkənan Kərimov, Naxçıvan Dövlət Universitetinin Hüquq fakültəsinin 2-ci kurs tələbəsi, Tələbə Elmi Cəmiyyətinin sədri Yusif Mirzəzadə, Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının Naxçıvan Muxtar Respublika Təşkilatının sədri Firudin Süleymanov da çıxış edib, 8 Noyabr Zəfərinin hərbi-siyasi, tarixi-mənəvi önəmindən danışıblar.

Konfransda tarixi Zəfərin suverenliyimizin qarantı olduğu vurğulanıb, dövlətimizin Qarabağda həyata keçirdiyi geniş abadlıq-quruculuq işlərinə diqqət çəkilib, Azərbaycanın qalib lideri Prezident İlham Əliyevin rəhbərliyi ilə bütün müstəvilərdə yeni uğurlara imza atılacağına inam ifadə edilib.

# Yüksək Dialoq ikitərəfli münasibətlərin təsdiqi kimi başa çatdı

İkinci Qarabağ müharibəsində qazanılan tarixi Zəfər Azərbaycanda ordu quruculuğunun yeni mərhələsinin başlanğıcı oldu. Şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığının yüksəldilməsi ordu quruculuğunun mühüm tərkib hissələrindən biri kimi bu mərhələdə də elmi əsaslarla, digər sahələrə koordinasiya edilməklə aparılır. Yeni mərhələdə aparılan islahatlar hərbi təhsil sistemində də mühüm yeniliklər yaratdı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "...milli dəyərlərimizə münasibətimiz həmişə çox yüksək səviyyədə olmuşdur. Bu gün də gənc nəslin tərbiyə olunmasında, formalaşmasında və Azərbaycanın uzunmüddətli, dayanıqlı, müstəqil ölkə kimi yaşamasında milli dəyərlərə bağlılığımız müstəsna rol oynayır...

Mən çox istəyirəm ki, bizim bütün ali məktəblərdə gənclərimiz yüksək peşəkarlıqla yanaşı, məhz milli dəyərlərimizi unutmasınlar" tövsiyəsi hərbi təhsildə də sədaqətlə yerinə yetirilir...





Ordu quruculuğunda ən mühüm islahatlardan biri də Milli Müdafiə Universitetinin yaradılmasıdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2022-ci il martın 5-də imzaladığı Fərmanla yaradılmış Milli Müdafiə Universiteti ordu quruculuğunda hərbi təhsil üzrə xidmət boyu təhsil konsepsiyasının həyata keçirilməsini, zabitlərin yeni hərbi (hərbi-elmi) bilikləri vaxtında mənimsəməsini, onların ordu quruculuğu prosesinə tətbiqinin iştirakçısı olmasını təmin etdi.

Hərbi təhsil prosesi ümumi təhsilin bir istiqaməti olsa da, mahiyyəti baxımından bilavasitə dövlətçiliyə yönəldilir. Buna görə də hərbi təhsil sistemində həyata keçirilən irimiqyaslı islahatlar bilavasitə ordunun döyüş hazırlığı üçündür. Xüsusi təyinatlı təhsil müəssisələrinin fəaliyyətini Milli Müdafiə Universitetinin nəzdində davam etdirməsi hərbi təhsil sistemi konsepsiyasının ordu quruculuğu ilə bilavasitə əlaqələndirilməsində mühüm amillərdən biri oldu. Milli Müdafiə Universitetinin yaranması tədris prosesinin yeniləşdirilməsinə, müasirləşdirilməsinə, proqram materiallarının məzmunun genişləndirilməsinə, Türkiyənin Milli Müdafiə Universitetinin təcrübəsinin öyrənilməsinə, öyrənilənlərin yaradıcılıq formatında Azərbaycan Milli Müdafiə Universitetinə inteqrasiya edilməsinə imkan yaratdı.

Azərbaycan Ordusunun NATO-ya inteqrasiyası da bilavasitə hərbi təhsil vasitəsilə həyata keçirilir. İstər yeni, müasir silahların öyrənilməsi, istismar xüsusiyyətlərinin mənimsənilməsi baxımından öyrənilməsi Azərbaycanda hərbi təhsil bu gün də dövlət üçün prioritetdir, ordu quruculuğu prosesinin dönməzliyini əhatə edən səviyyədə təşkil olunub. Hərbi təhsil Azərbaycan Respublikası Prezidentinin, Müdafiə Nazirliyi rəhbərliyinin tələb və göstərişləri əsasında daha da mükəmməlləşdiriləcəkdir...

Azərbaycan Milli Müdafiə Universiteti ilə Türkiyə Milli Müdafiə Universiteti arasında müxtəlif formatlı tədbirlər həyata keçirilir. Bu günlərdə keçirilən tədbir Azərbaycan və Türkiyə Milli Müdafiə Universitetləri arasında hərbi təhsil sahəsində Yüksək Dialoq da bu əlaqələrin davamıdır. Tədbirdə Türkiyə Milli Müdafiə Universitetinin rektoru professor Erhan Afyoncunun dediyi bir fikir tədbirin mahiyyətinin də, universitetlər miqyasında ikitərəfli əlaqələrin də, Türkiyə ilə Azərbaycanın münasibətləri müstəvisində tarixi gerçəkliyi ifadə etdi: "Sənin olanın mənimdir, mənim olanım sənindir, mənim, sənin olanın bizim qardaşlığımızındır!". Tədbir bu qənaətlə keçdi. Bu dialoq öyrənmə, bəhrələnmə, tətbiqetmə formatında təhsil düsturunun təşkilati formasıdır.

Azərbaycan Milli Müdafiə Universitetinin rektoru general-mayor Gündüz Əbdülov çıxışında zabit hazırlığının aktual məsələlərinin müzakirəsi olan Yüksək Dialoqun qarşılıqlı təcrübənin öyrənilməsinə, onların tədris prosesinə tətbiqi imkanlarının müəyyənləşdirilməsinə, tətbiqin mərhələlərinə və digər amillərlə koordinasiyasının imkanlarına və bu kimi məsələləri əhatə etdiyini, bu tədbirin hər iki tərəf üçün əhəmiyyətli olacağına əminliyini bildirərək qeyd etdi ki, bu tədbir də mahiyyəti baxımından Azərbaycanla Türkiyə arasında bağlanmış Şuşa Bəyannaməsinin mühüm tərkib hissələrindən biridir.

İslahatlar aparılarkən, xüsusilə qardaş Türkiyənin və digər qabaqcıl dünya ölkələrinin ən yaxşı təcrübələrindən istifadə olunduğunu, Türkiyənin xüsusi təyinatlı təhsil müəssisələrinin təcrübəsinin Azərbaycanın xüsusi təyinatlı təhsil müəssisələrinə inteqrasiyası ordu quruculuğuna yeni məzmun gətirdiyini, Azərbaycan Milli Müdafiə Universitetində peşəkar gizir konsepsiyasının tətbiqi çərçivəsində yeni kolleclərin təsis edildiyini, hərbi idarəetmə təhsil sisteminin əsasını təşkil edən "Xidmət boyu təhsil konsepsiyası"nın tətbiqini və s. xatırladan, bunun Azərbaycan Respublikası və Türkiyə Respublikası Prezidentlərinin iki strateji tərəfdaş dövlətin inkişafı istiqamətində müəyyənləşdirdiyi siyasətin, strateji müttəfiqlik münasibətlərinin hərbi təhsil sahəsində təzahürü olduğunu bildirən general-mayor Gündüz Əbdülov dedi: "Xidmət boyu təhsil konsepsiyası" bir-birini tamamlayan sistemli təhsil və dünyada cərəyan edən siyasi, hərbi, texnoloji dəyişikliklər zamanında tədris proqramlarına daxiletmə imkanı yaratmaqla, hərbi qulluqçuları xidməti vəzifələrinə daha keyfiyyətli şəkildə hazırlamaq məqsədi daşıyır. Bu konsepsiya hərbi təhsilin bütün xidmət müddətinə yayılmasına, daha çox hərbi qulluqçuya təhsil imkanının yaradılmasına, əhatə dairəsinin genişlənməsinə, təhsil-təcrübə-təhsil prinsipinin reallaşdırılmasına, təhsilin vəzifəyönümlü olmasına şərait yaradaraq zabitlərin karyera inkişafına ciddi töhfə verəcəkdir. Və, təbii ki, ötən il ərzində Milli Müdafiə Universitetinin tələbəsi olmaq istəyən şəxslər arasından namizəd seçimində kəmiyyətə deyil, keyfiyyətə yönəlməyimiz daha bir istiqamətdə islahatlar aparmağı zəruri etmişdir. Belə ki, əhatəliliyin artırılması, cəlbediciliyin yüksəldilməsi, vətəndaş məmnunluğunun təmin olunması məqsədilə universitetin qəbul prosesi tamamilə elektronlaşdırılmışdır".

Bu istiqamətdə əhəmiyyətli dərəcədə müsbət dəyişikliklərin müşahidə edildiyini də xatırladan rektor klassik müharibələrin aparılmasının artıq qeyri-səmərəli olduğunu, hərbi ixtisasını yaxşı bilən zabitlə yanaşı, bu günün tələblərinə cavab verən "Müasir milli zabit" heyətinin yetişdirilməsini mütləq zəruri etdiyini də diqqətə çatdırdı.

Türkiyə Milli Müdafiə Universitetinin rektoru professor Erhan Afyoncu çıxışında Azərbaycan və Türkiyə Milli Müdafiə Universitetləri arasında hərbi təhsil sahəsində Yüksək Dialoqun Türkiyənin də, Azərbaycanın da ordu quruculuğunun tam elmi əsaslarla aparılmasında, qarşılıqlı təcrübə mübadiləsi ilə hərbi təhsildə daha yeni və gərəkli uğurların qazanılmasında əhəmiyyətli olacağına əminliyini bildirərək qeyd etdi ki, Azərbaycan Milli Müdafiə Universitetində qısa müddətdə həyata keçirilən tədbirlər müasir hərb elminin tədris prosesinə tətbiqi baxımından dəyərləndirilməlidir. "Bunlar bizim üçün də maraqlıdır və diqqəti çəkir. Bu hərbi təhsil sahəsində təcrübə mübadiləsi formatında öyrənmə tədbiridir".

Türkiyə Milli Müdafiə Universitetinin rektoru professor Erhan Afyoncu çıxışında Azərbaycan və Türkiyə Milli Müdafiə Universitetləri arasında hərbi təhsil sahəsində Yüksək Dialoqun hər iki dövlətin hərbi təhsil sisteminin daha da formalaşmasında əhəmiyyətli olacağını bildirərək qeyd etdi ki, Azərbaycan gələcəkdə daha güclü Azərbaycan, Türkiyə gələcəkdə daha güclü Türkiyə, Azərbaycan-Türkiyə qardaşlığı gələcəkdə daha güclü qardaşlıq olacaq...



Azərbaycan və Türkiyə Milli Müdafiə Universitetləri arasında hərbi təhsil sahəsində Yüksək Dialoq müxtəlif qruplarda qarşılıqlı fikir mübadiləsi əsasında fəaliyyət istiqamətlərini müəyyənləşdirən konsepsiyaların hazırlanması ilə davam etdirildi. Bu və ya digər istiqamət üzrə hərbi təhsil sahəsində tədris proqramlarının təkmilləşdirilməsi üzrə işçi qruplarının müzakirələrində təkliflər dinlənildi, məruzələr onların ən optimalları əsasında hazırlandı.

Azərbaycan və Türkiyə Milli Müdafiə Universitetləri arasında hərbi təhsil sahəsində Yüksək Dialoq öz işini hər iki rektorun məruzələrə müdaxiləsi ilə, bu və ya digər tezisə münasibətləri bildirməsi ilə, məruzəçinin qeydləri, anlaşılmazlıqları dəqiqləşdirməsi ilə, əlavə şərhlərə istinad edərək təklif olunan tezisi parametrləşdirməsi ilə davam etdirdi. Məruzələrdə dialoqun fəaliyyətinə yaradıcı münasibət vardı. Məruzəçiyə ünvanlanan suallar mahiyyət baxımından hərbi təhsildə nəzərdə tutulan yeniliklərin tətbiqi imkanlarını, mümkünlüyünü, gərəkliliyini müəyyənləşdirməyə xidmət edirdi. Bu, Azərbaycan və Türkiyə Milli Müdafiə Universitetləri arasında hərbi təhsil sahəsində Yüksək Dialoqun son mərhələsinə elmi məruzə formatında yanaşma idi və müzakirə prosesində onun səmərəli olduğu da özünü göstərdi. Tərəflərin kiçik polemikaları ilə təklif edilən tezislərin təshih edilməsi təmin olunurdu. Hərbi Hava Qüvvələrində tədris prosesinin təkmilləşdirilməsi üzrə dinlənilən məruzə bu baxımdan diqqəti çəkdi. Türkiyədə təcrübədə olan azərbaycanlı pilotların orada uçuşlar icra etməsinin istər vaxta, istərsə də əlavə məsrəflərin qarşısının alınmasına səmərəsi barəsində səsləndirilən təklifin dəyərləndiriləcəyi bildirildi. Hərbi-elmi tədqiqatlar üzrə tədris prosesində də yeni yanaşmalar, tətbiq edilməsi mümkün olan yeniliklər haqqında da gərəkli münasibətlər bildirildi. Qeyd olundu ki, Türkiyədə dərc edilən hərbi jurnalın Azərbaycana, Azərbaycanda nəşr edilən hərbi jurnalın Türkiyəyə göndərilməsi gələcəkdə müştərək elmi jurnalların da nəşri elmi tədqiqatların aparılmasında əhəmiyyətli olar. Məruzədə həm də təklif edildi ki, doktorluq dissertasiyaları üzrə elmi araşdırmaçıya iki elmi rəhbər - məsləhətçi təyin olunması haqqında təklif hazırlansın, belə olarsa, elmi iş - dissertasiya hər iki dövlətin elmi nailiyyətlərinin daha əhatəli öyrənilməsinə, nailiyyətlərin koordinasiyasına, yeni elmi uğurların əldə edilməsinə şərait yaradacaq. Təklif qəbul olundu. Bu da Azərbaycan və Türkiyə Milli Müdafiə Universitetləri arasında hərbi təhsil sahəsində Yüksək Dialoqun uğuru hesab ediləcəkdir.

Məruzələrdə Hərbi Universitetlərdə, Hərbi Kollecdə yeni müasir tipli laboratoriyaların yaradılması, Hərbi İnstitutun yuxarı kurs kursantlarının Müdafiə Sənayesi şəbəkələrində təcrübə keçmələrinin gərəkliyi də diqqətə çatdırıldı və təklif bəyənildi...

Azərbaycan və Türkiyə Milli Müdafiə Universitetləri arasında hərbi təhsil sahəsində Yüksək Dialoq çərçivəsində dinlənilən məruzələrdən biri xarici dillərin tədrisini əhatə edirdi. Məruzəçi qeyd etdi ki, xarici dillərin tədrisi istiqamətində uğurlar var, artmaqdadır, ancaq perspektivi olmayan dillər üzrə kursların təşkili məqsədəuyğun deyil.

Azərbaycan və Türkiyə Milli Müdafiə Universitetləri arasında hərbi təhsil sahəsində Yüksək Dialoq Azərbaycanla Türkiyə arasında ikitərəfli münasibətlərin mahiyyətini tarixləşdirməklə başa çatdı.

**Kapitan**
**Fuad CƏFƏROV,**
**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**

## Azərbaycan Ordusunda psixoloqlarla təlim keçirilib





Azərbaycan Ordusunda psixoloqların peşə hazırlığının artırılması istiqamətində mühüm addımlar atılır. Bu məqsədlə Milli Müdafiə Universitetinin tabeliyində fəaliyyət göstərən Hərbi İdarəetmə İnstitutunda xüsusi psixoloji təlim təşkil olunub. Təlim hərbi psixoloqların müxtəlif ekstremal şəraitlərdə daha səmərəli fəaliyyət göstərə bilmələri üçün nəzərdə tutulub.

Müdafiə Nazirliyi xəbər verir ki, tədbir proqramına Türkiyədən dəvət edilmiş psixoloqlar "Şəxsiyyət pozuntuları", "Blackboard terapiya" mövzularında təqdimatlarla çıxış ediblər. Mütəxəssislər tərəfindən iştirakçılara fərdlərarası sözlə təsirin qüvvəsi, özünü idarəetmə zamanı sözün təsir gücü, eləcə də şəxsiyyət pozuntularının göstəriciləri barədə ətraflı məlumatlar verilib.

Təlimin sonunda nəzəri və praktiki biliklərin qiymətləndirilməsi məqsədilə interaktiv tapşırıqlar yerinə yetirilib, həmçinin iştirakçıların sualları cavablandırılıb.

## Döyüş hazırlığı üzrə məşqlər keçirilib







Azərbaycan və Serbiya respublikalarının Müdafiə nazirlikləri arasında 2025-ci il üçün imzalanmış "İkitərəfli hərbi əməkdaşlıq planı"na əsasən, Serbiya Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçuları üçün döyüş hazırlığı üzrə məşqlər keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, Azərbaycan Ordusunun Xüsusi Təyinatlı Qüvvələrinin (XTQ) mütəxəssisləri tərəfindən keçirilən hazırlıqda döyüş əməliyyatları zamanı müxtəlif silahların tətbiqi, döyüş düzülüşü, irəliləmə texnikası, pilotsuz uçuş aparatları, müşahidə və zərbə dronlarından istifadə qaydaları və üsulları məşq etdirilib.

Təlim çərçivəsində praktiki atışlar icra olunub.

## Hərbi hissəyə ekskursiya təşkil olunub







Mayın 19-da Bakı Avropa Liseyinin bir qrup müəllim və şagird heyətinin Hərbi Dəniz Qüvvələrinin "N" hərbi hissəsinə ekskursiyası təşkil olunub.

Ekskursiya çərçivəsində məktəblilərə hərbi hissənin yaranma tarixi, 44 günlük Vətən müharibəsində fəaliyyəti ilə bağlı məlumatlar verilib. Onlar hərbi hissənin arsenalındakı gəmi və katerlərlə, silah-sursatlarla, rabitə cihazları ilə, dalğıc avadanlıqları, eləcə də şəxsi heyətin qida rasionunda olan qida nümunələri ilə əyani tanış olublar.

Məktəblilərə təlim-məşq kompleksində yanğına və suya qarşı mübarizə elementləri, praktiki dalğıc dalışları, eləcə də zəbt olunmuş gəminin və heyətin azad olunması üzrə xüsusi təyinatlıların praktiki fəaliyyətləri göstərilib.

Məktəb rəhbərliyi şagirdlərin maariflənməsi məqsədilə həyata keçirilən ekskursiyanın təşkil olunmasına görə Müdafiə Nazirliyi rəhbərliyinə, eləcə də Hərbi Dəniz Qüvvələrinin komandanlığına öz minnətdarlığını bildirib. Belə tədbirlərin təşkilinin suverenliyimizin qarantı olan ordumuza sevgi və ehtiram aşılanmasında, şagirdlərin hərbi vətənpərvərlik tərbiyəsinin formalaşmasında böyük rol oynadığını vurğulayıb.

Ekskursiya zamanı məktəbliləri maraqlandıran suallar cavablandırılıb, xatirə şəkli çəkilib.

**"Azərbaycan Ordusu"**

## "Hərbi xidmət mənəvi ucalığa aparır..."

Orta məktəb şagirdlərini bir məqam ümumiləşdirir, "Hamımız əsgər olacağıq!" qüruru. Orta təhsil aldıqları illərdə də, ali məktəblərdə oxuyanda da bu qürur onların düşüncələrində olub. Orta məktəbi bitirdikdən sonra hərə öz yolunu seçir. Bu yollardan sonralar paralelləşəni də olur, kəsişəni də. Hərbi xidmətdə kəsişən yollar şagirdləri əsgər kimi salamlayır, onların həyat yolunun başlanğıcı olur...

Orta məktəbi bitirəndə Murad Qasımov da ali təhsil almaq istəmişdi. Sinif yoldaşları da, tanıdıqları da Muradın tələbə olacağına inanırdılar. "Yaxşı əsgər olacağına, yaxşı vətəndaş olacağına biz də əminik. Yaxşı vətəndaşlığın yolu yaxşı əsgər olmaqdan, həyatda özünü təsdiq edə biləcəyin bir işin qulpundan yapışmaqdan keçir", - ona belə deyirdilər. Murad gülümsünərək, "Mən ali təhsilli əsgər olacağam. Hərbi xidmətimi ali təhsilli mütəxəssis kimi yerinə yetirəcəyəm...", - deyirdi.

Oxudu, öyrəndi. Sınaq imtahanlarından əvvəl özünün özünə imtahanı oldu. İnandı ki, seçimində yanılmayıb. Həm təhsil alma istəyində, həm də universitet seçimində. "Türkiyədə oxumağı qərara almışdım, tanıdıqlarımdan Türkiyənin 19 May Universiteti haqqında çox eşitmişdim. Oranı seçdim. Həm də ona sevinirdim ki, tələbə olsam, Türkiyəni daha yaxından tanıyacağam", - sinif yoldaşlarına belə demişdi...

Qəbul olundu. Ali təhsilini başa vuraraq Vətənə qayıtdı. Hərbi xidmətə çağırıldı. Nümunəvi əsgərdir. Rabitəçidir. O da dedi ki, mənən kamil olmayan əsgər yaxşı əsgər ola bilməz. Onun döyüş hazırlığı yüksək ola bilər, ancaq o, döyüşdə qalib gələ bilməz. Azərbaycan əsgərinin mənəvi-psixoloji hazırlığı onun döyüş hazırlığını tamamlayır. İkinci Qarabağ müharibəsində qələbələr də, tarixi Zəfər



də belə qazanıldı. "Biz də bu Zəfəri qazananların mənəvi davamçılarıyıq. Zabitlərimiz bu döyüşlərdən də danışırlar, bu döyüşlərin qəhrəmanlıqlarından da. Biz bu söhbətləri vətənpərvərlik dərsləri bilirik. Təlimlərdən birində komandirimiz rabitəçilərin də döyüş hazırlığını yüksək dəyərləndirdi. Onu da bildirdi ki, rabitə döyüşün idarə olunmasında son dərəcədə gərəklidir. Onda qürurlanmışdım. Əsgər olmağımla da, rabitəçi olmağımla da...", - əsgər Murad Qasımov belə dedi...

Əsgər yoldaşları kimi, o da dedi ki, biz hərbi vəzifələrimizi yerinə yetirməyə və içmişik, bu and mənəvi borcumuzun öhdəliyidir. Buna görə də əsgər hərbi xidmətdən sonra mülki həyatda da əsgəri məsuliyyətlə işləyir, layiqli vətəndaş olmağa çalışır. Bizdən əvvəl xidmət edən əsgərlərdən birinin atası kəlbəcərlidir. Kəlbəcəri görməsə də, Kəlbəcərdə quruculuq işlərinin əsgəri olmağı qərara alıbmış. Əsgər dostları deyirlər ki, indi tikintilərə getməyə hazırlaşır. Onu tanıyırdım, ancaq yaxın münasibətim olmamışdı. Tərxis edildikdən sonra onunla könül söhbəti etmədiyimə təəssüfləndim.

Əsgərin bu təəssüfü hərbi xidmətdən tərxis edilmiş əsgərin işğaldan azad edilmiş ərazilərimizdə quruculuq işlərində çalışacaq əsgərin Vətən sevgisinin bir çalarına yozulmalıdır. Əsgər hərbi xidmətdən tərxis edilir, onun ruhu həmişə əsgər olaraq qalacaq. Vətənə sevgisinə görə...

Əsgər Murad Qasımov bir neçə aydan sonra tərxis ediləcək. Hərbi xidmət onun da həyatının həmişə yadda qalacaq ayları olacaq. Hərbi xidmət onun da xarakterini qətiyyətləşdirib, məsuliyyətliyini artırıb, dostluq, yoldaşlıq duyğularının ahənrübası olub.

Murad Qasımovu hərbi hissədə nümunəvi əsgər kimi tanıyırlar. "Orta məktəbdə oxudum, Türkiyədə ali təhsil aldım. Hərbi xidmətimi də başa vuracam. Əminliklə deyə bilərəm ki, ən yaxşı həyat məktəbi hərbi xidmətdir...", - əsgər Murad Qasımovun bu kəlmələri hərbi xidmətin mənəvi ucalığa aparan yol olduğunun ifadəsi kimi səslənir...

**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**

*Tibb xidməti*

# Həkimlik fədakarlıqdır

**(Əvvəli 1-ci səhifədə)**

Bu sənəti seçən həm də bir ömürlük missiya seçmiş olur. Onlar insan həyatını qorumağı, ağrıları yüngülləşdirməyi, ümidsizlərə ümid olmağı özlərinə borc bilirlər. Bir insanın sağlamlığına qovuşması üçün var gücü ilə çalışan həkimlər və digər tibb işçiləri əsl qəhrəmanlardırlar. Onların əlləri şəfadır, sözləri təsəllidir, ürəkləri mərhəmətlə doludur. Bu sənəti seçənlər insan sevgisini, vicdanı və fədakarlığı həyatlarının əsas prinsipi edirlər.

Həkimliklə hərb sənətini qoşalaşdıranlar isə xüsusi diqqətə və dərin hörmətə layiqdirlər. Çünki onlar yalnız insan sağlamlığını qorumaq üçün deyil, həm də Vətənin müdafiəsi üçün and içiblər.

Bu insanlar həm silah, həm də tibbi ləvazimatlarla Vətənin xidmətindədirlər. Hərbi tibb işçiləri təkcə peşəkar biliklərinə deyil, həm də dözümlülüyə, güclü iradəyə və sonsuz vətənpərvərliyə sahibdirlər.

Bu yolu seçənlərin yalnız bir amalı var - insan həyatını xilas etmək, qorumaq, Vətənə xidmət etmək. Onlar döyüşçüdürlər, xilaskardırlar, fədakardırlar.

Müdafiə Nazirliyinin Baş Klinik Hospitalının Travmatologiya və bərpaedici cərrahiyyə şöbəsinin baş ordinatoru tibb xidməti polkovnik-leytenantı Rahib Cəbrayılov həm həkim, həm də hərbçi kimi Vətənə fədakarlıqla xidmət edir.

Tibb xidməti polkovnik-leytenantı Rahib Cəbrayılov 1984-cü ildə Hacıqabul rayonunda anadan olub. Tibb sənətinə xüsusi marağı səkkizinci sinifdə başlayıb. Çox yaxın bir qohumunun xəstəxanadan sağlam olaraq geri qayıtması onun yaddaşında silinməz izlər qoyub. Hətta bu xeyirxah peşəni seçməsinə vəsilə də olub. 2001-ci ildə Azərbaycan Dövlət Tibb Universitetinə daxil olub.

- O zaman hərbi tibb fakültəsi yeni açılmışdı. Dördüncü kursda oxuyanda hərbi formada olan tibb fakültəsinin kursantlarını görəndə illərdir ürəyimin dərinliyində ümmana dönən vətənpərvərlik hissləri özünü göstərdi. Ən çox sevdiyim iki peşəni birləşdirmək üçün Hərbi Tibb fakültəsinə üz tutdum. Hərbi həkimlər haqqında araşdırmalar apardım. Dünyaşöhrətli alim, əfsanəvi hərbi cərrah Nikolay Piroqovun zamanında çox sürətli əməliyyatlar həyata keçirməsi diqqətimi çəkdi. Mən də ən yaxşısı olmaq üçün əlimdən gələni etdim. 2007-ci ildə Hərbi Tibb fakültəsini əla qiymətlərlə bitirdim. Hərbi tibb fakültəsində təhsil almaq təkcə peşəkar həkim olmaq deyil, həm də hərbi qaydalara, döyüş şəraitinə uyğun fəaliyyət göstərməyi öyrənmək deməkdir. Döyüşlərdə tibbi yardım göstərmək, yaralıları xilas etmək, ən çətin şəraitdə qərar vermək böyük məsuliyyət tələb edir. Tibb xidməti polkovnik-leytenantının fəaliyyəti onun fədakarlığını və vətənpərvərliyini sübut edir.

O zaman cəbhə bölgəsinə yaxın hərbi hissələrdən birində xidmətə başlayıb. Daha sonra ixtisaslaşma kursuna göndərilib. Ümumi cərrahiyyə üzrə ixtisaslaşdıqdan sonra xidmətini "N" hərbi hissəsində davam etdirib. 2016-cı ildə imtahan verərək



təhsilini Gülhanə Hərbi Tibb Akademiyasında təkmilləşdirməyə gedib.

- Üç mərhələli imtahan verərək qəbul oldum. Amma orada travmatoloq kimi təhsil aldım. Həmin müddətdə Türkiyə Respublikasının cənub-şərqində antiterror əməliyyatları aparılırdı. O zaman mən 1000-dən çox yaralı gördüm. Əməliyyatlarda iştirak etdim. Bu, mənim təcrübəmə, həqiqətən, müsbət mənada böyük təsir göstərdi. Beş il orada tibbi təhsil aldığım müddətdə mənə verilən həftə sonu istirahətlərini, məzuniyyətlərin hamısını başqa xəstəxanalarda ixtisasımı dərindən yiyələnməyə sərf etdim. Yəni, daha çox öyrənmək arzusuyla 5 il müddətində Türkiyənin yeddi böyük şəhərində 17 xəstəxana gəzdim. Axı mən bütün güc strukturlarımızın ilk ortoped uzmanı olacaqdım. Bu, mənim çiyinlərimə daha böyük bir məsuliyyət yükləyirdi. Vətənimdə məni çox böyük bir məsuliyyətli vəzifə gözləyirdi. Və mən bunun fərqində idim. Çünki orada olanda yanında hocaların, təcrübəli həkimlər var. Onlardan dəstək alırsan. Burada isə ən yüksək kateqoriyada təhsil görmüş həkim sənsən.

2020-ci ilin 27 sentyabrında xalqımızın yaddaşında böyük Qələbəyə, Zəfərə aparan yolun başlanğıcı olan Vətən müharibəsi başladı. Biz - Gülhanədə təhsil alan azərbaycanlılar raport yazaraq geri qayıtmaq istədiyimizi bildirdik. Lakin bizə cavab gəldi ki, qismən səfərbərlikdi. Bizim ürəyimiz Vətənimizlə atırdı. Doğma torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə biz də öz sahəmiz üzrə vuruşmaq istəyirdik, - tibb xidməti polkovnik-leytenantı R.Cəbrayılov dedi.

Vətənpərvərlik xalqın qan yaddaşı, şəxsiyyəti səciyyələndirən ən yüksək əxlaqi-etik keyfiyyətdir. Bu keyfiyyət xalqımızın həyatında həmişə başlıca meyar və xarakter kimi formalaşıb. Rahib həkimlə söhbətləşərkən bir daha bunun canlı şahidi oldum.

- "Ehtiyac olsa çağırarıq". Amma damarlarında azərbaycanlı qanı axanlar üçün bu sözlə kifayətlənmək mümkünsüzdür. İkinci dəfə yenidən raport yazdıq. Bu dəfə cavab gəldi ki, kim istəyirsə, Vətənə qayıda bilər. Təcili olaraq geri qayıtdıq.

Tibb xidməti polkovnik-leytenantı Baş Klinik Hospitala gəldikdə döyüş gedən ərazilərə - ən yaxın Ağdam bölgəsində fəaliyyət göstərən hospitala ezam olunur. Öz sahəsi üzrə "döyüşlərə" qatılır. 300-dən çox əməliyyat həyata keçirir. Azərbaycan əsgərinin rəşadətindən, qəhrəmanlığından qürurla danışan həkim bildirdi ki, həmin günlərdə bütün orta və yüngül yaralılar müalicələrinin dayandırılmasında - döyüşə qayıtmaqda israrlı idilər. Bu, Azərbaycan əsgərinin qələbə əzminin kükrəyişi idi...

- Hospitala daxil olan müxtəlif dərəcəli yaralılar gördük. Həkimlərimiz ağır əməliyyatlar həyata keçirir, onların qısa müddətdə müalicə olunaraq xidmətə qayıtmaları üçün əllərindən gələni əsirgəmirdilər. Bu, Vətən müharibəsi dövründə tibb işçilərinin döyüşü və Zəfəri idi desək, yanılmarıq.

Zəfərdən sonra geri dönərək təhsilini davam etdirən hərbi qulluqçumuz ordumuzun ilk ortoped uzmanı kimi Vətənimizə qayıdıb. Orada əldə etdiyi bilgilərlə həm mülki, həm də hərbçi vətəndaşlarımıza şəfa bəxş edir.

- Üç ildir xidmətimi Müdafiə Nazirliyinin Baş Klinik Hospitalında davam etdirməkdəyəm. Bu müddətdə antiterror əməliyyatında olduqca yüksək səviyyədə xidmət göstərərək aldığımız təhsilin, həqiqətən də, orduda nə qədər böyük müsbət təsiri olduğunu nümayiş etdirdik. Həkimlərimiz xaricdə təhsiliylə, konfranslarda, simpoziumlarda iştirakı ilə, davamlı olaraq öz üzərlərində işləyib tibbin yenilikləri ilə yaxından tanış olmaqlarıyla daha da təkmilləşirlər. Bunların nəticəsidir ki, bir sıra əlilliyə səbəb olan yaralanmalar var idi ki, biz onların əlil olmasına imkan vermədik. Bunlardan ətrafları, siniri qopanlar var idi. Əvvəllər - Birinci Qarabağ müharibəsində bu yaralanmalar əlilliklə nəticələnirdi, indi belə yaralılar - ətraf uzatmaları olsun, sinir, vətər köçürmələri, böyük əməliyyatlar keçirərək normal həyatlarına davam etdilər. Antiterror əməliyyatından sonra əlil olanların sayı, həqiqətən, minimal oldu, - Rahib həkim bildirdi.



Müharibə şəraitində, çətin döyüş şəraitində yaralılara ilk tibbi yardım göstərmək, onların həyatını xilas etmək, yaralı döyüşçüləri sağ-salamat arxaya çıxarmaq tibb işçilərinin əsas missiyası olub.

Azərbaycanın Vətən müharibəsindən Zəfərlə çıxmasını şərtləndirən başlıca amillərdən biri də məhz Vətənə sonsuz sevgi hissinin sarsılmazlığı oldu. Vətənə, torpağa bu bağlılığın təcəssümü idi ki, İkinci Qarabağ müharibəsində rəşadətli Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ermənilərin işğal etdiyi torpaqlarımızı azad edərək Azərbaycanın ərazi bütövlüyünü təmin etməyi bacardı.

Vətən müharibəsi ilə bağlı xatirələrini bölüşən həkim dedi ki, Ağdamda olanda bir nəfər yaralı hərbi qulluqçu - gizir gətirdilər. "Çanaq nahiyyəsindən çox ağır yaralanmışdı. Onu əməliyyat edib, reanimasiyaya yerləşdirdik. Vəziyyəti ağır idi. Sözsüz ki, onun üçün mümkün olacaq hər şeyi edirdik. Atası övladının vəziyyəti ilə bağlı soruşduqda komandirimiz ona hər şeyə hazır olmasını dedi. Ata elə ağladı ki, ay oğul, qapının ağzında onu anası, nişanlısı gözləyir, mən indi onlara nə deyim, necə deyim?

Gecəni çox narahat keçirdik. Səhər tezdən xəstəyə baxanda gördüm ki, ümidimizin son telləri belə qırılmaq üzrə olan yaralının həyati dəyərlərində müsbətə doğru dəyişikliklər var. O anda keçirdiyim hissləri sözlə ifadə etmək mümkünsüzdür. Atasına bu şad xəbəri verəndə sevincdən necə qışqırdısa, sanki bina silkələndi. Bu hadisədən həkim olaraq çox qürurlandım".

- Zəlzələ ən qəddar düşmənlə belə müqayisə olunmayacaq dərəcədə təhlükəlidir. Çünki bir anın içində yurd-yuvaları yerlə-yeksan edir, yüzlərlə, bəzən minlərlə insanın ömrünə son qoyur. 2023-cü il fevralın 6-da qardaş Türkiyədə baş verən dəhşətli təbii fəlakətdə də bunun bir daha canlı şahidi olduq. Bir millət, iki dövlət olaraq qardaşlarımızın yaşadığı bu durum hər birimizi dərindən sarsıtdı.

Mən Türkiyədə Gülhanə Tibb Akademiyasında təhsil almışdım. Orada olduğum müddət ərzində bizə olan münasibətin və sevginin daha yaxından şahidi olmuşdum. Vətən müharibəsində də qardaş dövlətin mənəvi dəstəyi danılmazdır. Fəlakətdən sonra bir həkim olaraq orada olmağı özümə borc bildim. Kahramanmaraşda olduğum müddətdə komandamız əlindən gələni əsirgəmədi. Biz tibbi yardımlardan, əməliyyatlardan fürsət olanda şəhərdə görülən işlərə də köməklik etdik - çadır qurduq, yemək daşıdıq.

Həkim insan sağlamlığının keşiyində duran, həyatları xilas edən və cəmiyyətin rifahına xidmət edən fədakar şəxsdir. O, yalnız xəstəlikləri müalicə edən bir mütəxəssis deyil, həm də ümid verən, şəfa gətirən və insanlara yeni bir həyat bəxş edən insandır.

Bütün böyük yolçuluqlar bir arzu ilə başlayır. Rahib həkimin səkkizinci sinifdə oxuyan qızı Nigarın ən böyük arzusu atasının yolunu davam etdirməkdir. O, atasının seçdiyi bu müqəddəs peşənin - həkimliyin vurğunudur və gələcəkdə cərrah olmaq istəyir. Hər bir ata üçün övladının onun yolunu davam etdirməsi dünyadakı ən böyük fəxrdir. Rahib həkim də bu hissi yaşamaqdadır. Nigar hələ kiçik yaşlarından atasının insanlara necə sevgi və fədakarlıqla kömək etdiyini görərək, bu sənətə böyük maraq göstərib. Tətillərdə atası ilə birlikdə hospitala gələrək real tibbi mühitlə, əməliyyatlarla yaxından tanış olub. Bir insanın yolunu davam etdirmək üçün eyni peşəni seçmək kifayət etmir - o ruhu da yaşatmaq istəyir.

2010-cu ildə Monteneqroda NATO-nun konfransında ölkəmizi təmsil edən Rahib həkim ölkə daxilində və xaricində keçirilən beynəlxalq konfranslarda, simpoziumlarda davamlı olaraq iştirakından söhbət açdı. Bildirdi ki, həkimlik sadəcə bir peşə deyil, insan həyatına birbaşa toxunan müqəddəs bir missiyadır. "Bu missiyanı layiqincə yerinə yetirmək üçün həkim daim öz üzərində işləməli, bilik və bacarıqlarını artırmalıdır. Tibbin sürətlə inkişaf etdiyi bir dövrdə illər öncə öyrənilən biliklərlə kifayətlənmək olmaz. Yeni metodlar, müasir texnologiyalar, fərqli müalicə protokolları hər gün dəyişir və yenilənir. Peşəkar həkim daim oxumalı, araşdırmalı, beynəlxalq təcrübələri öyrənməli və praktikasını zənginləşdirməlidir. Belə olduqda xəstəyə ən düzgün diaqnoz qoymaq, ən səmərəli müalicə üsulunu tətbiq etmək mümkündür. Özünü inkişaf etdirməyən həkim zamanla bilik baxımından geridə qalır və bunun acı nəticəsini həm özü, həm də müalicə etdiyi xəstələr çəkir".

Uzman həkim hələ Gülhanədə oxuyarkən ortopedik sahədə müxtəlif ingilis dilində dərc olunan kitabların tərcümələrində iştirak edib. Həmin kitablarda qeydləri var, adı çəkilib. Bəzi araşdırmalar üzrə məqalələri dərc olunub. 2024-cü ildə Türkiyədə Gülhanə Təhsil və Araşdırma Xəstəxanasında 4 aylıq sümük xərçəngi üzrə ixtisasartırma kursu keçib. Bu gün həyata keçirdiyi bəzi əməliyyatlar - uşaqlarda və böyüklərdə diz qapağı çıxıqlarının rekonstruksiyası, oynaq donmalarının minevaziv minimal invaziv yolla aradan qaldırılması haqqında da elmi məqalələr dərc edəcəyini vurğuladı.

Rahib Cəbrayılov kimi hərbi tibb işçiləri təkcə peşəkar bilikləri ilə deyil, həm də böyük cəsarət və vətənpərvərlikləri ilə seçilirlər. Onlar bəzən həyatlarını belə təhlükəyə ataraq, silahdaşlarını həyata qaytarmaq üçün mübarizə aparıblar. Belə fədakarlar tarixdə hər zaman iz qoyur və unudulmaz olurlar.

Onun fədakarlığı, xidməti və peşəsinə olan sədaqəti gələcək nəsillər üçün nümunədir. Belə insanlar sayəsində həm Vətən qorunur, həm də onun uğrunda canını fəda etməyə hazır olan hərbçilərin həyatı xilas olunur. Belə ömürlər Vətən üçün yaşanılan ömürdür...

**Kapitan**
**Günay TAĞIYEVA**
**"Azərbaycan Ordusu"**

## Məişət

# “Əsgərlərimizin düzgün və sağlam qidalanması bizim əsas vəzifəmizdir”





(Əvvəli 1-ci səhifədə)

“N” hərbi hissəsinə gəlişimiz hərbi qulluqçularımızın nahar fasiləsinə təsadüf etdi. Fürsətdən istifadə edərək onların qidalanma prosesi ilə yaxından tanış olmaq imkanına nail olduq. Yeməkxananın ümumi vəziyyətini müşahidə etdikdə, ilk növbədə, burada olan səliqə-sahman, əl-üzyuma yerləri və müasir avadanlıqlarla təchiz olunmuş mətbəx diqqətimizi cəlb etdi.

Yeməkxana rəisi baş gizir Elnur Yusifovla söhbət edib gündəlik menyu, qidaların keyfiyyəti və hazırlanma prosesi barədə ətraflı məlumat aldıq. 20 ildir ki, xidmətdə olan hərbçimiz dedi ki, yeməkxanaya daxil olan şəxsi heyət, ilk növbədə, gigiyenik qaydalara riayət etməlidir. "Vətən müdafiəçilərimizin məişət şəraiti, düzgün qidalanması həmişə yüksək səviyyədə olmalıdır. Dadlı, keyfiyyətli, yüksək kalorili qidalar qəbul edən hərbçilərin orqanizmi sağlam, immuniteti güclü və möhkəm olur. Hər gün menyularımız yenilənir, fərqli yeməklər hazırlanır. Menyuda milli xörəklər üstünlük təşkil edir. Həmçinin qida rasionunda olan ət, toyuq, balıq məhsulları, yumurta, mövsümi meyvə-tərəvəz, kompot və təbii şirələr şəxsi heyətin istehlakı üçündür. Əsgərlərimizin düzgün və sağlam qidalanması bizim əsas vəzifəmizdir".

Yeməklərin hazırlanma prosesinin marağında olduğumuz üçün hərbi hissənin yeməkxana növbətçisi gizir Ağababa Xəlilovla həmsöhbət olduq. "Yeməklərin hazırlanması gigiyena qaydalarına uyğun şəkildə həyata keçirilir. Ərzaqların təzəliyi diqqətlə yoxlanılır. Menyuya uyğun olaraq aşpazlarımız müxtəlif növ yeməklər hazırlayır, keyfiyyətlərinə xüsusi nəzarət edirlər. Çalışırıq ki, əsgərlərimiz həm doyumlu, həm də sağlam şəkildə qidalana bilsinlər. Bugünkü menyumuz düyü supu, kələm dolması, tərəvəz salatı və alma şirəsidir. Yeməklərin dadlı hazırlanmasının da sübutu əsgərlərimizin iştahla yemələridir", - gizir dedi.

Əsgərlər də söhbət zamanı hazırlanan təamlardan və onlar üçün yaradılan şəraitdən ağızdolusu danışdılar: "Peşəkar aşpazlarımız bizə dadlı xörəklər hazırlayırlar. Həftənin günlərinə görə müxtəlif salatlar və meyvə şirələri də verilir. Burada yediyimiz yeməklər ev yeməklərindən seçilmir".

Mətbəxdə çalışan qadınlardan baş aşpaz mülki işçi Səbinə Orucova bildirdi ki, əsgər balalarımıza layiqli xidmət göstərmək hər birimizin mənəvi borcudur. "Onlar Vətənimizin mərd oğullarıdırlar. Heç birini öz övladımdan ayırmaram. Oğlum da əsgərlikdən yeni qayıdıb. Burada çalışdığım müddətdə minlərlə övlad qazanmışam. Onların iştahla yemək yemələrini, üzlərində olan təbəssümü gördəndə işimə olan həvəsim daha da artır. Bizim başlıca vəzifəmiz onlara dadlı yeməklər hazırlamaqdır. Vətənini sevən, ordusuna güvənən hər bir kəs öz əsgərinə qayğı göstərməlidir. Çünki onlar müqəddəs amala xidmət edirlər".

Digər aşpazlardan Nuriyyə Əhmədova, Zəhra Binnətova da gördükləri işlərdən danışdılar. Eşitdiyimiz xoş sözlər, gördüyümüz ürəkaçan mənzərə bizi bir vətəndaş kimi fərəhləndirdi.

**Şəlalə DÜNYAMALIYEVA**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar



### Türkiyədə milli azadlıq mübarizəsinin başlanmasının 106-cı ildönümü qeyd edilib

Türkiyədə 19 May - Atatürkü Anma, Gənclik və İdman Bayramı qeyd edilib.

Qardaş ölkənin bütün vilayətlərində, xaricdəki diplomatik nümayəndəliklərdə, habelə Şimali Kipr Türk Cümhuriyyətində bu əlamətdar gün münasibətilə bayram tədbirləri və yürüşlər təşkil olunub.

Prezident Rəcəb Tayyib Ərdoğan bayram nitqində gənclərin ölkənin inkişafının hərəkətverici qüvvəsinə çevriləcəyinə, onların "Türkiyə əsri" məqsədlərinə çatmağa töhfə verəcəyinə əminliyini ifadə edib.

Türkiyə liderinin müraciətində deyilir: "Biz dinc, sabit, firavan və texnoloji cəhətdən inkişaf etmiş Türkiyəni yeni vətəndaş nəsillərinə miras qoymaq üçün əlimizdən gələni edirik".

Mayın 19-da səhər saatlarında qardaş ölkənin gənclər və idman naziri Osman Aşkın Bak bütün vilayətlərdən paytaxta gəlmiş uşaq və yeniyetmələrin müşayiəti ilə Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün məqbərəsini ziyarət edib.

Ənənəyə sadiq qalaraq, həmin gün liderlər işlərini müvəqqəti olaraq uşaqlara təhvil verir və bununla da dövlətin Türkiyə vətəndaşlarının gələcək nəsillərinə həvalə ediləcəyinin əhəmiyyətini vurğulayırlar.

Bayram günündə üzərində Türkiyə bayraqlarının təsviri olan onlarla hava şarı Kapadokya turizm bölgəsi üzərində səmaya qalxıb.

1919-cu il mayın 19-da Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürk Samsun şəhərində gənclər qarşısında məşhur çıxışında ölkə ərazisinin bir hissəsini zəbt etmiş işğalçılara qarşı mübarizənin başlandığını elan edib. Bu müraciət Türkiyə Cümhuriyyətinin yaranmasına damğasını vuran milli azadlıq mübarizəsinin əsasını qoyub.

### İspaniya Türkiyənin “Hürjet” təlim-məşq təyyarəsini satın alır



Bu yaxınlara qədər hərbi sahədə versiyalara səbəb olan məsələ Madriddə üç gün ərzində baş tutan beynəlxalq müdafiə sənayesi və təhlükəsizlik sərgisi - "FEINDEF-2025"də reallaşıb.

İspaniyanın "ABC" qəzeti xəbər verir ki, sərgidə Hərbi Hava Qüvvələri və Kosmik Qüvvələrin pilotları üçün Türkiyənin "Hürjet" təlim-məşq təyyarəsinin satın alınması üçün ilk addımlar atılıb.

İspan qırıcı təyyarə pilotlarının hazırlanması üçün istifadə edilən F-5 təyyarələrinin dəyişdirilməsi ölkənin Hərbi Hava Qüvvələrinin əsas prioritetlərindən biridir. Təyyarə yarım əsrdir ki, İspaniya Hərbi Hava Qüvvələri üçün F-18 və "Eurofighter" pilotlarını yetişdirmək üçün istifadə olunur, lakin hazırda istismar müddəti başa çatır və onların dəyişdirilməsi zərurəti yaranıb.

İspaniya Müdafiə Nazirliyi bu məqsədlə "Hürjet"i seçib. BBC telekanalı hesab edir ki, bu təyyarə onun ehtiyaclarını tam ödəyir və ispan pilotlarının hərtərəfli hazırlanmasına imkan verəcək.

Hökumətin təsdiq etdiyi müdafiə planına artıq 275 milyon avroluq büdcə daxildir ki, bura da qırıcı təyyarə pilotları üçün 28-30 təkmil təlim təyyarəsi və hərtərəfli yerüstü təlim sistemi daxildir. Hərbi Hava Qüvvələrinin rəhbərliyi Türkiyədə istehsal olunacaq ilk təyyarənin 2028-ci ildə tədarük ediləcəyini gözləyir. İlk təyyarələrdən sonra Türkiyə ilə texnologiya transferi müqaviləsi çərçivəsində qalan platformalar bütünlükdə İspaniyada istehsal olunacaq.

**AZƏRTAC-ın materialları əsasında**

# İdman

### Əminə Əliyeva dünya çempionu olub



Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın qızı, Prezident İlham Əliyevin nəvəsi Əminə Əliyeva kunq-fu üzrə dünya çempionatında uğurla çıxış edib.

Milli komandanın 11 yaşlı üzvü Əminə Əliyeva İtaliyanın Peruca şəhərində təşkil edilən turnirdə ölkəmizi layiqincə təmsil edib və dünya çempionu olub.

### Azərbaycanın iki sərbəst güləşçisi İranda fəxri kürsüyə qalxıb



İranın Behşehr şəhərində sərbəst güləş üzrə "Necad Haşimi Kuboku" turnirinə start verilib.

İlk yarış günündə sərbəst güləş üzrə 57, 65, 74, 86 və 97 kiloqramda qaliblər müəyyənləşib. Yeddi ölkənin idmançılarının mübarizə apardığı ənənəvi turnirin ilk günündə U-20 milli komandanın 2 üzvü fəxri kürsüyə qalxıb. Omar Gülməmmədov (74 kiloqram) gümüş, Sədrəddin Həsənov (57 kiloqram) isə bürünc medal qazanıb. Vasif Bağırov, Hüseyn Hüseynov (hər ikisi 57 kiloqram) və Məhəmməd Abbaszadə (86 kiloqram) beşinci yerlə kifayətlənib.

### Azərbaycan velosipedçisi Qazaxıstanda bürünc medal qazanıb



Trek velosipedi üzrə Azərbaycan yığmasının üzvü Viktoriya Sidorenko Qazaxıstanın paytaxtı Astanada keçirilən beynəlxalq "Silk Way Series Astana" beynəlxalq turnirində uğurla çıxış edib.

İdmançı Beynəlxalq Velosipedçilər İttifaqının (UCI) 2-ci kateqoriyalı yarışında 200 metr məsafəyə sprint üzrə mübarizədə bürünc medal qazanıb.

Viktoriya Sidorenko bu nəticə ilə aktivinə 80 reytinq xalı da əlavə edib.

### UFC-nin şöhrət zalının üzvü Bakıya gələcək



UFC-nin şöhrət zalının üzvü və keçmiş orta çəki üzrə çempionu Maykl Bispinq Azərbaycanda keçiriləcək ilk tarixi turnir çərçivəsində Bakıya gələcək.

Maykl Bispinq, Brendon Fitzcerald və Pol Felder iyunun 21-də "Baku Kristal Hall"da baş tutacaq möhtəşəm UFC turnirinin rəsmi şərhçiləri olacaqlar.

Eyni zamanda, UFC dünyasının canlı əfsanəsi Brus Baffer turnirin oktaqon aparıcısı olacaq.

Gecənin əsas qarşılaşması keçmiş UFC yarım ağır çəki çempionu Camal Hill ilə keçmiş titul iddiaçısı Xalil Rauntri arasında baş tutacaq. Gecənin "co-main event"i (ikinci əsas döyüş) isə Azərbaycan təmsilçisi Rafael Fiziyev ilə çilili İqnasio Bahamondes arasında yüngül çəkidə keçiriləcək döyüş olacaq.

**AZƏRTAC-ın materialları əsasında**

**Redaktor**
mayor
Ceyhun CƏFƏRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, Yasamal rayonu,
Şəfaət Mehdiyev küçəsi 144,
“Qızıl Şərq” hərbi şəhərciyi

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

“Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz.

**Növbətçi**
Rəşid HÜSEYNOV

Lisenziya № 361
Sifariş № 242
Nüsxə 3630